# Lənkəranda şəhidin məzarı ziyarət olunub

**Mail Əzizov 28 avqust 2000-ci ildə Lənkəranın Şağlaküçə kəndində dünyaya göz açıb. 20 illik qısa ömrünün ziyarətgahı da bu kənddədir. Gül-çiçəyə qərq edilmiş şəhid məzarı. Yaşasaydı, 25 yaşı olacaqdı.**




44 günlük müharibə başlayanda Mail Mahir oğlu Əzizov ordu sıralarında hərbi xidmətdə idi. İlk gündən döyüşə atılmışdı. Mənfur düşmənə qarşı ölüm-dirim savaşında böyük şücaətlə döyüşürdü. Hərbi xidmətdə öyrəndikləri köməyinə gəlir, komandirin tapşırıqlarını məharətlə yerinə yetirirdi. Beləcə o, qısa ömründə böyük şücaətlər göstərdi, canını Vətən uğrunda qurban verdi. Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn igid noyabrın 26-da doğulduğu, boya-başa çatdığı kənddə dəfn olundu.

Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medallarına layiq görüldü.

Şəhidin xatirəsi əziz tutulur, məzarı tez-tez ziyarət olunur. Noyabrın 26-sı isə anım günüdür. Həmin gün Lənkəran şəhərinin rəhbərliyi, ictimaiyyətin nümayəndələri şəhidin qəbrini ziyarət edir, məzarı önünə tər güllər düzür, ruhuna dualar edirlər. Bu il də istisna olmadı. ŞİH-in başçısı şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə onlara təşəkkür etdi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 28 noyabr (№252).- S.11.